*“Strateji xəttimiz - sərbəst iqtisadiyyat, özəlləşdirmə və sosial inkişaf yoludur”*

**HEYDƏR ƏLİYEV**

# MÜLKİYYƏT

Şənbə, 7 SENTYABR 2019-cu il №36 (1141) Qiymәti 30 qәpik Qәzet 1996-cı ildәn çıxır


# Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakıda “Şimal-2” elektrik stansiyasının istismara verilməsi mərasimində iştirak edib




Dövlətimizin başçısına burada görülən işlər barədə məlumat verildi. Qeyd edildi ki, 1950-ci illərdə iki mərhələdə istifadəyə verilən “Şimal” Elektrik Stansiyasının 1988-ci ildə birinci, 1998-ci ildə ikinci növbəsi tam köhnəldiyindən istismardan çıxarılmışdı. 1998-ci ildə ulu öndər Heydər Əliyev Yaponiyaya səfəri zamanı 400 meqavatlıq “Şimal-1” Elektrik Stansiyasının tikintisi üçün ölkəmizə investisiya cəlb olunmasına nail olub. Beləliklə, 2000-ci ildə əsası qoyulan 400 meqavatlıq “Şimal-1” stansiyası 2002-ci ildə istismara verilib. 2011-ci ildə isə Prezident İlham Əliyevin iştirakı ilə ərazisi 104,9 hektar, gücü 400 meqavatlıq “Şimal-2” Elektrik Stansiyasının təməli qoyulub. Ötən ilin payızından başlayaraq “Şimal-2” Elektrik Stansiyasının tikinti və quraşdırma prosesləri sürətləndirilərək 2019-cu ildə işlər tamamlanıb.

Ümumi qoyuluş gücü 800 MVt olan “Şimal-1” və “Şimal-2” elektrik stansiyalarının vahid mərkəzdən idarə edilməsi, istismar prosesində əməliyyatların operativliyinin təmin olunması və ekstremal qəza vəziyyətlərində işdə pozuntuların operativ aradan qaldırılması nəzərə alınaraq ərazidə Mərkəzi İdarəetmə Binası inşa edilib.

Binada elektrik stansiyasının tarixini əks etdirən eksponatların sərgiləndiyi muzey də fəaliyyət göstərir. Burada iclas və konfrans zalları da yaradılıb. Yeni istifadəyə verilən idarəetmə binasında vahid dispetçer idarəetmə mərkəzi və stansiyanın mikro SCADA sistemi yaradılıb. Stansiyanın enerjisisteminin ümumi idarəetmə sisteminə inteqrasiyası üçün serverlər quraşdırılıb və optik kabel xətti çəkilib. Yeni binada stansiyaya aid olan bütün kommunikasiya əlaqələrinin vahid sxemə uyğun birləşdirilməsi təmin edilib. “Şimal-1” və “Şimal-2” elektrik stansiyalarının birlikdə il ərzində gözlənilən istehsalı 5,7 milyard kilovat-saatdır.

Stansiyada Yaponiyanın “Mitsubishi” şirkətinin istehsalı olan 138 MVt gücündə buxar, 267 MVt gücündə qaz turbinləri, 560 MVA gücündə elektrik generatoru və onların köməkçi sistemləri quraşdırılıb. Enerji blokunda istehsal olunan elektrik enerjisi 480 MVA gücündə olan blok transformatordan qapalı tipli yarımstansiya vasitəsilə elektrik veriliş xətlərinə ötürülür. Müxtəlif gərginlik sinfinə malik olan paylayıcı qurğular arasında əlaqəni təmin etmək üçün 2 avtotransformator quraşdırılıb. Burada istehsal olunan elektrik enerjisinin ötürülməsi məqsədilə Abşeron regionunda 220 kV-luq dairəvi sxem qurulub, “Şimal” Elektrik Stansiyasının “Sumqayıt ES” və “Abşeron YS” ilə əlaqələndirilməsi üçün 65 kilometr uzunluğunda 220 kV-luq dörd hava elektrik verilişi xətti istismara verilib. Qəza rejimlərində stansiyanın vacib sistemlərinin elektrik enerjisi ilə qidalandırılması üçün qəza dizel generatoru quraşdırılaraq xüsusi sərfiyyat sxeminə qoşulub və avtomatik ehtiyatdan qoşulması təmin edilib.

Prezident İlham Əliyev “Şimal-2” Elektrik Stansiyasını işə saldı.

Hazırda ən yüksək faydalı iş əmsalına malik olan “Şimal-1” və “Şimal-2” elektrik stansiyaları birlikdə respublika üzrə elektrik enerjisi istehsalının 20 faizini, Bakı və Abşeron yarımadası üzrə 40-50 faizini təşkil edəcək. “Şimal” Elektrik Stansiyası enerjisistemin texniki-iqtisadi göstəricilərinin yaxşılaşdırılmasına əsaslı təsir etməklə yanaşı, il ərzində 77 milyon kubmetr təbii qazın qənaətinə və regionlardan Bakı şəhərinə verilən enerjinin miqdarının 20 faiz azalması nəticəsində elektrik enerjisinin uzaq məsafədən ötürülməsindən yaranan 199 milyon kVts elektrik enerjisi itkisinə qənaət olunmasına imkan yaradacaq. Bundan başqa, “Şimal” Elektrik Stansiyası 57,4 faiz faydalı iş əmsalına malikdir ki, bu da Cənubi Qafqaz regionunda ən yüksək faydalı iş əmsalı deməkdir. Elektrik stansiyası il ərzində 3,2 milyard kVts elektrik enerji istehsal edəcək və hər bir kVts elektrik enerjisinin buraxılışına 214,3 qram şərti yanacaq sərf ediləcək ki, bu da enerjisistemin ümumi göstəricisindən 65 qram azdır.

Stansiyanı yüksək təzyiqli yanacaqla təmin etmək məqsədilə yeraltı qaz kəməri, qaz tənzimləyici və təmizləyici qovşaq, qazqızdırıcı qurğular və kompressor stansiyası tikilib. Stansiyanın buxar turbinlərinin kondensatorları və avadanlıqları Xəzər dənizindən götürülən su vasitəsilə soyudulur. Bu məqsədlə Xəzər dənizindən 140 metr uzunluğunda soyuducu su kanalı, hovuz, su xətti və ümumi məhsuldarlığı saatda 52 min kubmetr olan sahil nasos stansiyası, o cümlədən buxar turbininin kondensatorundan çıxan soyuducu suyun Xəzər dənizinə qaytarılması üçün boru xətti inşa olunub. Stansiyanın texniki və içməli suya olan tələbatının təmin edilməsi və su ehtiyatının yaradılması məqsədilə ərazidə duzsuzlaşdırma qurğusu və digər zəruri infrastruktur yaradılıb. Stansiyanın yanğın təhlükəsizliyinin təmin edilməsi üçün ərazidə yanğınsöndürmə sistemi də müasir səviyyədə qurulub.

Ətraf mühitin mühafizəsi məqsədilə stansiyada əksosmos qurğusu, xüsusi ekoloji monitorinq sistemi, sənaye tullantılarının və çirkab sularının təmizlənməsi qurğuları inşa olunub. Stansiyanın avadanlıqlarının normal istismarı və reqlament üzrə texniki xidmətin aparılması məqsədilə stansiyada ekspress və kimya, elektrotexniki və sınaq-diaqnostika laboratoriyaları, müxtəlif müasir dəzgahlarla komplektləşdirilmiş mexaniki təmir emalatxanası və qapalı mərkəzi anbar binası tikilib, təhlükəsizliyin təmin edilməsi məqsədilə zəruri işlər görülüb, videomüşahidə sistemi yaradılıb. Ərazidə genişmiqyaslı abadlıq-quruculuq işləri aparılıb, yaşıllıqlar salınıb, müxtəlif ağac və gül kolları əkilib.

Dövlətimizin başçısı stansiyanın kollektivi ilə xatirə şəkli çəkdirdi.

Stansiyanın kollektivinə uğurlar arzulayan Prezident İlham ƏLİYEV dedi: -Təbrik edirəm. Stansiyanın açılışı çox əlamətdar hadisədir. Azərbaycanda elektrik enerjisinə olan tələbat artır və əlbəttə ki, istehsal gücləri bu tələbata uyğun olmalıdır. Ona görə bu stansiyanın çox böyük əhəmiyyəti var.

Yaponiya şirkətlərinə də təşəkkürümü bildirirəm, burada çox fəal işləyiblər, bu stansiyanı yüksək keyfiyyətlə qurublar. Stansiyanın qurulması Yaponiya-Azərbaycan əməkdaşlığının təzahürüdür və Xarici İşlər nazirinin müavini də xüsusilə bu məqsədlə Azərbaycana səfər edib. Əminəm ki, bizim ikitərəfli əlaqələrimiz gələcəkdə də uğurla inkişaf edəcək, çünki hələ bir çox layihələr icra olunmalıdır.

Bu stansiyanın fəaliyyətə başlaması elektrik enerjisi sahəsində çox əlamətdar hadisədir. Mən şadam ki, biz bu gün bu stansiyanın açılışını edirik. Azərbaycanda bundan sonra da sənaye istehsalının və iqtisadiyyatın artımı elektrik enerjisi mənbələri ilə təmin edilməlidir. Sizi bir daha təbrik edirəm, sizə uğurlar arzulayıram.

X X X

Respublikamızda həyata keçirilən genişmiqyaslı iqtisadi islahatlar, çoxsaylı sənaye və aqrar-sənaye obyektlərinin yaradılması elektrik enerjisinə və ehtiyat generasiya güclərinə tələbatı daha da artırdığından “Şimal-2” Elektrik Stansiyasının istismara verilməsi çox əhəmiyyətlidir. Bu, iqtisadi cəhətdən istehsal prosesinin səmərəliliyinin yüksəlməsinə, elektrik enerjisinin istehsalına sərf olunan yanacağın əhəmiyyətli dərəcədə azalmasına, ixrac potensialının artırılmasına və digər texniki imkanların genişləndirilməsinə şərait yaradır. Bütün bunlar isə ümumilikdə ölkəmizin iqtisadi potensialının möhkəmləndirilməsi istiqamətində dövlət tərəfindən atılan addımların ardıcıl və məqsədyönlü şəkildə davam etdiyini göstərir.


**Əmlak Məsələləri Dövlət Komitəsindən vətəndaşlar üçün praktiki xidmət: mənzillərin ünvanı, tikildiyi tarixi və sahəsi üzrə bazar qiymətini onlayn öyrənin** 2

**Bakı şəhəri üzrə 03 sentyabr 2019-cu il tarixdə keçirilmiş hərracda satılmış nəqliyyat vasitələrinin siyahısı** 2

**Torpaq müsabiqələrinin və hərraclarının keçirilməsi haqqında məlumat Torpaq müsabiqə və hərracları oktyabr ayının 10-da saat 15:00-da keçiriləcəkdir.** 3

## Elektron hərrac sistemi ilə vaxt itirmədən özəlləşdirmədə iştirak et: oktyabrın ilk hərracına hansı dövlət əmlakları çıxarıldı?

Əmlak Məsələləri Dövlət Komitəsinin özəlləşdirmə hərraclarına qoşulmaq ilə bağlı tətbiq etdiyi elektron xidmətlər vətəndaşların o cümlədən, digər proses iştirakçılarının vaxtına qənaəti təmin edir, şəffaflıq və məmnuniyyəti artırır. Dövlət əmlaklarına sifariş vermək, eləcə də hərraclarda iştirak üçün əlavə ünvanlara müraciət kimi prosedurları artıq elektronhərracın müasir üstünlükləri əvəz edir. Belə ki, iştirakçı statusu almaq istəyən hər kəs komitənin onlayn resursları vasitəsilə seçim edir, sifariş verir, eyni zamanda hərraca onlayn formada qoşula bilir. Bu fürsətlər hərraca marağı olan digər şəxslərin də prosesdə heç bir qeydiyyat olmadan iştirakını təmin edir.

Dövlət əmlaklarının özəlləşdirilməsinə qoşulmaq istəyən şəxslər üçün növbəti iştirak imkanı 01 oktyabr tarixində keçiriləcək hərracda yaradılıb. Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən oktyabrın ilk hərracına ümumilikdə 27dövlət əmlakı çıxarılıb. Onlardan 22-si səhmdar cəmiyyəti, 5-i nəqliyyat vasitəsi və müxtəlif çeşidli avadanlıqlardır.

Səhmdar cəmiyyətləri nəqliyyat, sənaye, tikinti, xidmət və digər sahələrə aiddir. İri müəssisələrdən biri Bakı şəhəri, Səbail rayonu, E.Əzizov küçəsindəki “Şəmkir” Açıq Səhmdar Cəmiyyətidir. Ümumi nizamnamə kapitalının 30%-lik həcmində səhm paketi özəlləşdiriləcək dövlət əmlakının ərazisində inzibati bina, müxtəlif təyinatlı anbarlar, qazanxana və digər binalar var.

Özəlləşdirməyə çıxarılmış bütün dövlət əmlakları haqqında ətraflı məlumat əldə etmək və hərraclara qoşulmaq istəyən şəxslər komitənin rəsmi saytına (emdk.gov.az) və Özəlləşdirmə portalına (privatization.az) daxil ola bilər.

## Torpaq sahəsinin koordinatlarını, plan ölçüsünü bilmək üçün aparılan işlərə görə tələb olunan xidmət haqqını internetlə özün hesabla

Mülkiyyətçilər torpaq sahələrinin koordinatlarını, plan ölçüsünü, hansı ərazidə yerləşməsi ilə bağlı dəqiq məlumatları özündə əks etdirən kadastr planını əldə etmək üçün tələb olunan xidmət haqqını internet vasitəsilə, onlayn olaraq hesablaya bilir. Vətəndaşlar Əmlak Məsələləri Dövlət Komitəsinin elektron xidmətlərindən biri olan “Kadastr kalkulyatoru” ilə bu imkanı əldə edir.

Xidmətdən istifadə etmək istəyən vətəndaşlar Əmlak Məsələləri Dövlət Komitəsinin Elektron Xidmətlər Portalında (e-emdk.gov.az) 41-ci elektron xidmət olan “Kadastr kalkulyatoru” bölməsinə daxil ola bilər. İstifadəsi sadə olan elektron xidmət sahəsindən “Kadastr planlarının və yerquruluşu xəritələrinin tərtibi”bölməsi seçilir. Xidmətlərdən istifadə üçün əmlakın yerləşdiyi şəhər və rayonu, torpağın sahəsi və kateqoriyası, ehtimal edilən nöqtələrin və parsellərin sayı daxil edilir. Kadastr planlarının və yerquruluşu xəritələrinin tərtibi ilə bağlı elektron xidmətdən istifadə üçün daşınmaz əmlakın növü, tərtib olunan plan və ya xəritənin sayı da qeyd olunur. İstifadəçi öz istəyinə uyğun xidmətin tezləşmə müddətini qeyd etməklə xidmət haqqı ilə bağlı dəqiq məbləği öyrənə bilər.

Bundan başqa adıçəkilən elektron xidmətə daxil olmaqla“Torpaqların inventarlaşdırılması və müayinə baxış aktlarının tərtibi” ilə bağlı tələb olunan xidmət haqqını da öyrənmək mümkündür. Hesablamanı həyata keçirən zaman tələb olunan məlumatlar “Kadastr planlarının və yerquruluşu xəritələrinin tərtibi” xidmətindəki kimi analoji xarakter daşıyır. Belə ki, istifadəçi torpağın coğrafi və texniki göstəricilərini qeyd edir. Torpağın kateqoriyası, əhatə etdiyi sahəsi, parsellerin sayı və digər məlumatlar ekranda əks olunur. Bu xidmətdə də tezləşmə qaydası tətbiq edilir. Qeyd edilməlidir ki, torpaq kənd təsərrüfatı təyinatlıdırsa bu zaman həmin sahənin çoxillik əkmələr və ya digər kateqoriyaya aid olduğu göstərilməlidir. Texniki inventarlaşdırma işləri zamanı daşınmaz əmlak obyektinin, o cümlədən torpaq sahəsinin mövcudluğu, faktiki vəziyyəti, texniki göstəriciləri və tərkibi müəyyən edilir.

Vətəndaşın öncədən kadastr xidmətləri ilə bağlı qanunvericiliyə uyğun olaraq ödəyəcəyi məbləğlə tanış olması prosesdə şəffaflığı artırır, şəxsi seçiminə uyğun daha düzgün qərarı verməsini təmin edir.




## Əmlak Məsələləri Dövlət Komitəsinin məlumatı

**Hörmətli media nümayəndələri!**

Ölkə rəhbəri Möhtərəm cənab Prezident İlham Əliyevin “Azərbaycan mətbuat işçilərinin sosial müdafiəsinin gücləndirilməsinə dair əlavə tədbirlər haqqında” 2013-cü il 22 iyul tarixli Sərəncamıilə jurnalistlər üçün inşa edilmiş və onların mülkiyyətinə verilmiş ikinci binada yerləşən mənzillərə dair Çıxarışlar Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən yaxın günlərdə səyyar mobil qeydiyyat xidməti çərçivəsində həmin binanın həyətində media nümayəndələrinə təqdim ediləcəkdir.




## Əmlak Məsələləri Dövlət Komitəsindən vətəndaşlar üçün praktiki xidmət: mənzillərin ünvanı, tikildiyi tarixi və sahəsi üzrə bazar qiymətini onlayn öyrənin

Bəzi vətəndaşlar mənzili aldıqdan sonra qiymətin bazar dəyərindən baha olduğunu öyrənir. Digərləri isə qiymətdə yanılmamaq üçün alacağı evin bazar dəyərini bilmək istəyir. Əmlak Məsələləri Dövlət Komitəsinin elektron xidməti vasitəsi iləalmaq istədiyiniz evin qiymətinin bazar dəyərinə uyğun olub-olmadığınıəvvəlcədən öyrənmək mümkündür. Komitənin “Mənzillərin alqı-satqı müqavilələri üzrə satış qiymətləri barədə məlumatların verilməsi” elektron xidməti buna imkan verir. Elektron xidmət daha çox praktiki olması ilə seçilir. Bu xidmətin köməyi ilə ev sahibi və ya alıcı əldə etmək istədikləri ərazidə evlərin bazar qiymətini elektron qaydada real vaxt rejimində öyrənə bilir.

Bunun üçün vətəndaş komitənin “Elektron xidmətlər” portalındakı 9-cu xidmət pəncərəsinə keçid alır. Daha sonra əmlak haqqında məlumatlar daxil edilir. Belə ki, ilk olaraq əmlakın yerləşdiyi rayon, qəsəbə, küçə daxil edilir. Eyni zamanda bazar qiymətinin hansı tarix aralığı üzrəolmasınıseçir. Məsələn, vətəndaş 2019-cu ilin yanvar-avqust aylarını seçməklə bu tarixlərdəki mənzillərin bazar dəyərini öyrənə bilir. Daha sonra istifadəçi elektron qaydada 10 manat məbləğində xidmət haqqını ödəməklə nəticəni əldə edir.

Nəticədə isə həmin ərazidə olan alqı-satqısı aparılan mənzillərin ətraflı olaraq məlumatları əks olunur. Belə ki, satılan mənzillərin siyahısı, tikildiyi tarix, o cümlədən satış tarixi göstərilir. Həmçinin mənzillərin sahəsi və otaq sayına uyğun olaraq da qiymət dəyişir. Burada 1,2,3 və daha çox otaqlı mənzillərin bazar qiymətini görmək olar. Adıçəkilən elektron xidmət vasitəsilə bu sahədə yarana biləcək çətinliklər aradan qaldırılır, qiymətlə bağlı vətəndaşın səhv yönləndirilməsi kimi problemlər minimuma enir. Eyni zamanda onlar maliyyə resurslarını əvvəlcədən planlaşdırmaqla vəsaitlərinə rahatlıqla özləri qərar verə bilir.

## 193 Çağrı mərkəzi:daşınmaz əmlakla bağlı sorğulara operativ cavab və hüquqi yardım

Əmlak Məsələləri Dövlət Komitəsinin fəaliyyət istiqamətləriüzrə sorğuların anında cavablandırılması, o cümlədən vətəndaşların göstərilən xidmətlərlə bağlı hüquqi informasiya təminatının yüksəldilməsi sahəsində 193 Çağrı mərkəzi fəaliyyət göstərir. Hər bir müraciətə operativ reaksiya vermək, təklifləri dinləmək kimi məqsədlərlə komitəninÇağrı mərkəzi vətəndaşların xidmətindədir.

Bu ilin ilk 8 ayı ərzində Çağrı mərkəzinə ümumilikdə 18 minə yaxın müraciət daxil olub. Ünvanlanan müraciətlər əsasən, ərizə və məktubların icrası, daşınmaz əmlakların dövlət qeydiyyatına alınması, elektron xidmətlər, dövlət əmlaklarının özəlləşdirilməsi vədigər məsələlərə aiddir. Yanvar-avqust ayları ərzində məlumat mərkəzinə daxil olmuş müraciətlərin 17 mindən yuxarısı sorğu tipli, qalanı isə araşdırma tələb edən məsələlər olub.

Hər bir sorğu bütün hallarda qanunvericiliyə uyğun olaraq cavablandırılıb, vətəndaşlara ətraflı izahatlar verilib. Araşdırma tələb edən müraciətlər isə qeydə alınıb və fəaliyyət sahəsi olan struktur bölməyə həll edilməsi üçün yönləndirilib. Qeyd edək ki, Çağrı mərkəzinə edilən müraciətlərdən 15 minə yaxını paytaxt Bakı şəhərində, 3 minə yaxını isə regionlarda yaşayan vətəndaşlar tərəfindən ünvanlanıb.

Əmlak Məsələləri Dövlət Komitəsinin 193 Çağrı mərkəzi bütün sorğuların cavablandırılmasını təşkil etmək, vətəndaşların bu istiqamətdə hər hansı bir çətinliyini dərhal aradan qaldırmaq məqsədilə canlı və səsli menyu rejimində olmaqla fasiləsiz fəaliyyət göstərir. Canlı rejimdə komitə mütəxəssisləri həftənin iş günləri saat 9.00-dan 18.00-dək vətəndaşların müraciətlərini gözləyir.




# ELANLAR

### Bakı şəhəri üzrə 03 sentyabr 2019-cu il tarixdə keçirilmiş hərracda satılmış nəqliyyat vasitələrinin siyahısı

| № | Balanssaxlayıcı müəssisənin adı | Avtonəqliyyat vasitələrinin markası | Buraxılış ili | Hərraca çıxarılan ilkin satış qiyməti (manat) | Hərracda yekun satış qiyməti (manat) | Protokol №-si və tarixi |
|---|---|---|---|---|---|---|
| 1 | Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin İsmayıllı Rayon Statistika İdarəsi | VAZ-21043 | 2006 | 2200 | 2200 | 24/19 01.08.2019 |
| 2 | Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin Mingəçevir Şəhər Statistika İdarəsi | VAZ-21041 | 2008 | 4000 | 4000 | 24/19 01.08.2019 |
| 3 | Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin Qubadlı Rayon Statistika İdarəsi | VAZ-21041 | 2008 | 4000 | 4000 | 24/19 01.08.2019 |
| 4 | Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin Lerik Rayon Statistika İdarəsi | VAZ-21041 | 2008 | 3500 | 3500 | 24/19 01.08.2019 |
| 5 | Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin Salyan Rayon Statistika İdarəsi | VAZ-21043 | 2006 | 3400 | 3400 | 24/19 01.08.2019 |
| 6 | Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin Xocalı Rayon Statistika İdarəsi | VAZ-21043 | 2006 | 3000 | 3000 | 24/19 01.08.2019 |
| 7 | Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin Tərtər Rayon Statistika İdarəsi | VAZ-21041 | 2008 | 3800 | 4100 | 24/19 01.08.2019 |
| 8 | Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin Biləsuvar Rayon Statistika İdarəsi | VAZ-21043 | 2007 | 3400 | 3400 | 24/19 01.08.2019 |
| 9 | Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin Yevlax Rayon Statistika İdarəsi | VAZ-21043 | 2006 | 3500 | 3500 | 24/19 01.08.2019 |
| 10 | Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin Qusar Rayon Statistika İdarəsi | VAZ-21043 | 2006 | 3500 | 3500 | 24/19 01.08.2019 |
| 11 | Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin Ağdam Rayon Statistika İdarəsi | VAZ-21041 | 2008 | 3800 | 3800 | 24/19 01.08.2019 |
| 12 | Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin Xaçmaz Rayon Statistika İdarəsi | VAZ-21043 | 2006 | 3500 | 4650 | 24/19 01.08.2019 |
| 13 | Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin Göygöl Rayon Statistika İdarəsi | VAZ-21043 | 2006 | 3500 | 3500 | 24/19 01.08.2019 |
| 14 | Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin Şəki Şəhər Statistika İdarəsi | QAZ-31105-100 | 2006 | 3500 | 3800 | 24/19 01.08.2019 |
| 15 | Azərbaycan Respublikası Dövlət Sığorta Kommersiya Şirkətinin Kəlbəcər Rayonu Dövlət Sığorta Filalı | Hyundai Tucson (qəzalı) | 2008 | 5000 | 5000 | 24/19 01.08.2019 |
| 16 | Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin Beyləqan Rayon Statistika İdarəsi | VAZ-21043 | 2006 | 2500 | 2500 | 24/19 01.08.2019 |
| 17 | Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin Oğuz Rayon Statistika İdarəsi | VAZ-21043 | 2006 | 3500 | 4900 | 24/19 01.08.2019 |
| 18 | Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin Samux Rayon Statistika İdarəsi | VAZ-21043 | 2007 | 2800 | 2800 | 24/19 01.08.2019 |
| 19 | Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin Ağsu Rayon Statistika İdarəsi | VAZ-21041 | 2008 | 4200 | 4200 | 24/19 01.08.2019 |
| 20 | Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin Zərdab Rayon Statistika İdarəsi | VAZ-21043 | 2006 | 2500 | 2500 | 24/19 01.08.2019 |
| 21 | Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin Zaqatala Rayon Statistika İdarəsi | VAZ-21043 | 2006 | 3500 | 3500 | 24/19 01.08.2019 |
| 22 | Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin Qəbələ Rayon Statistika İdarəsi | VAZ-21041 | 2008 | 4000 | 4500 | 24/19 01.08.2019 |
| 23 | Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin Şirvan Şəhər Statistika İdarəsi | VAZ-21041 | 2008 | 4200 | 4200 | 24/19 01.08.2019 |
| 24 | Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin Ağcabədi Rayon Statistika İdarəsi | VAZ-21041 | 2008 | 3800 | 3800 | 24/19 01.08.2019 |
| 25 | Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin Yardımlı Rayon Statistika İdarəsi | VAZ-21043 | 2007 | 3500 | 3500 | 24/19 01.08.2019 |
| 26 | Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin İmişli Rayon Statistika İdarəsi | VAZ-21043 | 2007 | 3700 | 3700 | 24/19 01.08.2019 |
| 27 | Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin Tovuz Rayon Statistika İdarəsi | VAZ-21043 | 2006 | 3000 | 3000 | 24/19 01.08.2019 |
| 28 | Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin Astara Rayon Statistika İdarəsi | VAZ-21043 | 2006 | 3300 | 3300 | 24/19 01.08.2019 |
| 29 | Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin Balakən Rayon Statistika İdarəsi | QAZ-31105-100 | 2006 | 3500 | 3500 | 24/19 01.08.2019 |

### 03 sentyabr 2019-cu il tarixində keçirilmiş hərracda satılmış dövlət nəfinə müsadirə edilmiş əmlakların siyahısı

| Sıra sayı | Əmlakın adı | Əmlakın yerləşdiyi ünvan | Ölçü vahidi | Miqdarı | Əmlakın start qiyməti (manatla) | Əmlakın satış qiyməti (manatla) |
|---|---|---|---|---|---|---|
| **Sabunçu rayonu** | | | | | | |
| 1 | Müxtəlif markalı mobil telefonlar | Hərracların Təşkili üzrə Auksion Mərkəzinin təyin etdiyi saxlanc yeri | ədəd | 10 | 37.5 | 37.5 |
| **Xəzər rayonu** | | | | | | |
| 1 | Müxtəlif markalı mobil telefonlar | Hərracların Təşkili üzrə Auksion Mərkəzinin təyin etdiyi saxlanc yeri | ədəd | 7 | 99 | 99 |
| **Sabirabad rayonu** | | | | | | |
| 1 | "Star TSP100 future prnt" markalı çap aparatı | Sabirabad rayonu | ədəd | 1 | 35 | 35 |

### 08 oktyabr 2019-cu il tarixdə hərraca çıxarılan nəqliyyat vasitələrinin siyahısı

| S/N | Balanssaxlayıcı müəssisənin adı | Avtonəqliyyat vasitəsinin markası | Buraxılış ili | Start qiyməti (manatla) | 10% beh (manatla) |
|---|---|---|---|---|---|
| 1. | Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin Saatlı Rayon Statistika İdarəsi | VAZ-21043 | 2006 | 2300 | 230 |
| 2. | Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin Kürdəmir Rayon Statistika İdarəsi | VAZ-21043 | 2006 | 3000 | 300 |
| 3. | Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin Şəmkir Rayon Statistika İdarəsi | VAZ-21043 | 2007 | 3500 | 350 |
| 4. | Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin Goranboy Rayon Statistika İdarəsi | VAZ-21043 | 2007 | 4000 | 400 |
| 5. | Şirvan Apelyasiya Məhkəməsi | Toyota Avalon | 2007 | 10000 | 1000 |
| 6. | Azərbaycan Respublikası Dövlət Sığorta Kommersiya Şirkətinin Xocalı Rayonu Dövlət Sığorta Filalı | VAZ-21074 | 2007 | 2000 | 200 |

Qeyd: 1-4-cü sətirlərdə Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin Rayon Statistika İdarələrinin balansında olan nəqliyyat vasitələri 2-ci dəfə təkrar hərraca çıxarılır.

Qeyd: Sifarişlər Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsi Əmlak Xidmətləri Məkanında (Bakı şəhəri, Nizami rayonu, Xəlil Rza Ulutürk küçəsi 20) və yaxud e–emdk.gov .az elektron portalı vasitəsilə hərracın keçirilməsinə ən gec 3 (üç) bank günü qalanadək qəbul olunacaqdır: Nəqliyyat vasitələri barədə ətraflı məlumatıprivatization.az portalından almaq olar. Hərracda iştirak etmək üçün (elektron sifariş verənlər istisna olaraq) hərracın keçirilməsinə ən azı 3 bank günü qalanadək aşağıdakı sənədlər təqdim olunmalıdır:

1. Sifarişçinin şəxsiyyətini təsdiq edən sənəd (Hüquqi şəxslər üçün:notarial qaydada təsdiq olunmuş qeydiyyat şəhadətnaməsi,nizamnaməsi və VÖİN)

2. Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən müəyyən edilmiş hesaba behin köçürülməsini təsdiq edən sənəd. (10% məbləğində beh Mərkəzi Bankda – AZ65NABZ01361150000000004944 nömrəli hesablaşma hesabına ödənilməlidir) (tel:566-07-44)

## Torpaq müsabiqələrinin və hərraclarının keçirilməsi haqqında məlumat
## Torpaq müsabiqə və hərracları oktyabr ayının 10-da saat 15:00-da keçiriləcəkdir.
***(Ərizələr 09 sentyabr 2019-cu il - 09 oktyabr 2019-cu il tarixlərində qəbul edilir)***

| Sıra № si | Torpağı müsabiqə və ya hərraclara çıxaran hüquqi şəxs (yerli icra hakimiyyəti, bələdiyyə) | Müsabiqə və ya hərrac | Müsabiqə və ya hərracın keçirildiyi yer və əlaqə telefonu | Müsabiqə və ya hərraca çıxarılan torpaq sahəsi və satıcı ilə bağlanacaq müqavilənin layihəsi ilə tanış olma tarixi, vaxtı və ünvanı | Sahəsi (kv.m və ya ha.), satılır və ya icarəyə verilir | Satışda-normativ qiymət, icarədə icarə haqqının aşağı həddi (manatla) | Hərracda ilkin qiymət, hərrac addımı və ya müsabiqədə qiymət, icarədə icarə haqqı (manatla) | Hansı məqsəd üçün satılır və ya icarəyə verilir | Uqodiya (təsərrüfat yeri) növü, keyfiyyət qrupu, şəhərlərdə və rayon mərkəzlərində zona | Torpaq üzərində hüququ təsdiq edən sənədin nömrəsi |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | Sumqayıt şəhəri Corat Bələdiyyəsi | Müsabiqə | ƏMDK-nin Sumqayıt ərazi şöbəsi, Sumqayıt şəhəri, 18-ci məhəllə, bina 4/12 Tel: (018) 654 47 97 | 10 oktyabr 2019-cu il tarixinədək Sumqayıt ərazi şöbəsi | 420 kv.m Satılır | 1360.80 | 2957.00 | Fərdi yaşayış evi | III zona | 309012003139 |
| 2 | Siyəzən rayonu Siyəzən Bələdiyyəsi | Müsabiqə | ƏMDK-nin Sumqayıt ərazi şöbəsi, Sumqayıt şəhəri, 18-ci məhəllə, bina 4/12 Tel: (018) 654 47 97 | 10 oktyabr 2019-cu il tarixinədək Sumqayıt ərazi şöbəsi | 50 kv.m İcarə | 4.00 | 75.00 | Sahibkarlıq | II zona | 305012000556 |
| 3 | Abşeron rayonu Hökməli Bələdiyyəsi | Müsabiqə | ƏMDK-nin Abşeron ərazi şöbəsi, Abşeron rayonu, Xırdalan şəhəri, M.Hüseynzadə küçəsi 315 Tel: (012) 349 21 83 | 10 oktyabr 2019-cu il tarixinədək Abşeron ərazi şöbəsi | 440 kv.m Satılır | 396.00 | 1320.00 | Fərdi yaşayış evi | I qrup, əkin | 308012014940 |
| 4 | Salyan rayonu Salyan Bələdiyyəsi | Müsabiqə | ƏMDK-nin Şirvan ərazi şöbəsi, Şirvan şəhəri, M.Rəsulzadə küçəsi14 Tel: (021) 215 27 98 | 10 oktyabr 2019-cu il tarixinədək Şirvan ərazi şöbəsi | 745 kv.m Satılır | 357.60 | 44700.00 | Sahibkarlıq | II zona | 809012002484 |
| 5 | Salyan rayonu Salyan Bələdiyyəsi | Müsabiqə | ƏMDK-nin Şirvan ərazi şöbəsi, Şirvan şəhəri, M.Rəsulzadə küçəsi14 Tel: (021) 215 27 98 | 10 oktyabr 2019-cu il tarixinədək Şirvan ərazi şöbəsi | 25,6 kv.m Satılır | 24.57 | 1536.00 | Sahibkarlıq | I zona | 809012002678 |
| 6 | Salyan rayonu Salyan Bələdiyyəsi | Müsabiqə | ƏMDK-nin Şirvan ərazi şöbəsi, Şirvan şəhəri, M.Rəsulzadə küçəsi14 Tel: (021) 215 27 98 | 10 oktyabr 2019-cu il tarixinədək Şirvan ərazi şöbəsi | 18 kv.m Satılır | 17.28 | 1080.00 | Sahibkarlıq | I zona | 809012002669 |
| 7 | Goranboy rayonu Buzluq Bələdiyyəsi | Müsabiqə | ƏMDK-nin Bərdə ərazi şöbəsi, Bərdə şəhəri, H.Əliyev pr, 357 Tel: (020) 205 27 77 | 10 oktyabr 2019-cu il tarixinədək Bərdə ərazi şöbəsi | 800 kv.m Satılır | 52.00 | 320.00 | Həyətyanı | I qrup, əkin | 509012001476 |
| 8 | Goranboy rayonu Buzluq Bələdiyyəsi | Müsabiqə | ƏMDK-nin Bərdə ərazi şöbəsi, Bərdə şəhəri, H.Əliyev pr, 357 Tel: (020) 205 27 77 | 10 oktyabr 2019-cu il tarixinədək Bərdə ərazi şöbəsi | 800 kv.m Satılır | 52.00 | 320.00 | Həyətyanı | I qrup, əkin | 509012001477 |
| 9 | Goranboy rayonu Qızılhacılı Bələdiyyəsi | Müsabiqə | ƏMDK-nin Bərdə ərazi şöbəsi, Bərdə şəhəri, H.Əliyev pr, 357 Tel: (020) 205 27 77 | 10 oktyabr 2019-cu il tarixinədək Bərdə ərazi şöbəsi | 30,77 ha İcarə | 22.01 | 924.00 | Heyvandarlıq | III qrup, örüş | 509012001504 |
| 10 | Goranboy rayonu Qızılhacılı Bələdiyyəsi | Müsabiqə | ƏMDK-nin Bərdə ərazi şöbəsi, Bərdə şəhəri, H.Əliyev pr, 357 Tel: (020) 205 27 77 | 10 oktyabr 2019-cu il tarixinədək Bərdə ərazi şöbəsi | 10,97 ha İcarə | 7.85 | 330.00 | Heyvandarlıq | III qrup, örüş | 509012001503 |
| 11 | Goranboy rayonu Qızılhacılı Bələdiyyəsi | Müsabiqə | ƏMDK-nin Bərdə ərazi şöbəsi, Bərdə şəhəri, H.Əliyev pr, 357 Tel: (020) 205 27 77 | 10 oktyabr 2019-cu il tarixinədək Bərdə ərazi şöbəsi | 4,90 ha İcarə | 3.50 | 147.00 | Heyvandarlıq | III qrup, örüş | 509012001460 |
| 12 | Goranboy rayonu Qızılhacılı Bələdiyyəsi | Müsabiqə | ƏMDK-nin Bərdə ərazi şöbəsi, Bərdə şəhəri, H.Əliyev pr, 357 Tel: (020) 205 27 77 | 10 oktyabr 2019-cu il tarixinədək Bərdə ərazi şöbəsi | 4,34 ha İcarə | 3.10 | 131.00 | Heyvandarlıq | III qrup, örüş | 509012001455 |
| 13 | Goranboy rayonu Qızılhacılı Bələdiyyəsi | Müsabiqə | ƏMDK-nin Bərdə ərazi şöbəsi, Bərdə şəhəri, H.Əliyev pr, 357 Tel: (020) 205 27 77 | 10 oktyabr 2019-cu il tarixinədək Bərdə ərazi şöbəsi | 4,05 ha İcarə | 2.90 | 122.00 | Heyvandarlıq | III qrup, örüş | 509012001456 |
| 14 | Bərdə rayonu Bərdə Bələdiyyəsi | Müsabiqə | ƏMDK-nin Bərdə ərazi şöbəsi, Bərdə şəhəri, H.Əliyev pr, 357 Tel: (020) 205 27 77 | 10 oktyabr 2019-cu il tarixinədək Bərdə ərazi şöbəsi | 108,6 kv.m Satılır | 32.58 | 1282.00 | Sahibkarlıq | I zona | 610012001196 |
| 15 | Bərdə rayonu Mirzəcəfərli Bələdiyyəsi | Müsabiqə | ƏMDK-nin Bərdə ərazi şöbəsi, Bərdə şəhəri, H.Əliyev pr, 357 Tel: (020) 205 27 77 | 10 oktyabr 2019-cu il tarixinədək Bərdə ərazi şöbəsi | 5 ha İcarə | 7.61 | 500.00 | Heyvandarlıq | IV qrup, örüş | 610012001597 |
| 16 | Bərdə rayonu Mirzəcəfərli Bələdiyyəsi | Müsabiqə | ƏMDK-nin Bərdə ərazi şöbəsi, Bərdə şəhəri, H.Əliyev pr, 357 Tel: (020) 205 27 77 | 10 oktyabr 2019-cu il tarixinədək Bərdə ərazi şöbəsi | 4,6 ha İcarə | 7.00 | 437.00 | Heyvandarlıq | IV qrup, örüş | 610012001586 |
| 17 | Tərtər rayonu Sarov Bələdiyyəsi | Müsabiqə | ƏMDK-nin Bərdə ərazi şöbəsi, Bərdə şəhəri, H.Əliyev pr, 357 Tel: (020) 205 27 77 | 10 oktyabr 2019-cu il tarixinədək Bərdə ərazi şöbəsi | 9 ha İcarə | 110.16 | 450.00 | Kənd təsərrüfatı məhsullarının istehsalı | II qrup, əkin | 611012000299 |
| 18 | Tərtər rayonu İsmayılbəyli Bələdiyyəsi | Müsabiqə | ƏMDK-nin Bərdə ərazi şöbəsi, Bərdə şəhəri, H.Əliyev pr, 357 Tel: (020) 205 27 77 | 10 oktyabr 2019-cu il tarixinədək Bərdə ərazi şöbəsi | 9500 kv.m İcarə | 1.45 | 33.00 | Kənd təsərrüfatı (heyvandarlıq) | II qrup, örüş | 611012000320 |
| 19 | Tərtər rayonu İsmayılbəyli Bələdiyyəsi | Müsabiqə | ƏMDK-nin Bərdə ərazi şöbəsi, Bərdə şəhəri, H.Əliyev pr, 357 Tel: (020) 205 27 77 | 10 oktyabr 2019-cu il tarixinədək Bərdə ərazi şöbəsi | 6400 kv.m İcarə | 0.97 | 22.00 | Kənd təsərrüfatı (heyvandarlıq) | II qrup, örüş | 611012000319 |
| 20 | Tərtər rayonu Qarağacı Bələdiyyəsi | Müsabiqə | ƏMDK-nin Bərdə ərazi şöbəsi, Bərdə şəhəri, H.Əliyev pr, 357 Tel: (020) 205 27 77 | 10 oktyabr 2019-cu il tarixinədək Bərdə ərazi şöbəsi | 1,63 ha İcarə | 2.48 | 78.00 | Kənd təsərrüfatı (heyvandarlıq) | III qrup, örüş | 611012000321 |
| 21 | Qazax rayonu Qaymaqlı Bələdiyyəsi | Müsabiqə | ƏMDK-nin Qazax ərazi şöbəsi, Qazax rayonu, Azadlıq küçəsi 75 Tel:(022) 295 17 96 | 10 oktyabr 2019-cu il tarixinədək Qazax ərazi şöbəsi | 1000 kv.m Satılır | 88.10 | 840.00 | Həyətyanı | I qrup, bonitet balı 100, əkin | 501012001701 |
| 22 | Qazax rayonu Ağköynək-Qarapapaq Bələdiyyəsi | Müsabiqə | ƏMDK-nin Qazax ərazi şöbəsi, Qazax rayonu, Azadlıq küçəsi 75 Tel:(022) 295 17 96 | 10 oktyabr 2019-cu il tarixinədək Qazax ərazi şöbəsi | 800 kv.m Satılır | 70.48 | 800.00 | Həyətyanı | I qrup, bonitet balı 100, əkin | 501012001675 |
| 23 | Şəmkir rayonu Şəmkir Bələdiyyəsi | Müsabiqə | ƏMDK-nin Qazax ərazi şöbəsi, Qazax rayonu, Azadlıq küçəsi 75 Tel:(022) 295 17 96 | 10 oktyabr 2019-cu il tarixinədək Qazax ərazi şöbəsi | 95 kv.m Satılır | 45.60 | 2242.00 | Sahibkarlıq | II zona | 504012004139 |
| 24 | Xaçmaz rayonu Xaçmaz Bələdiyyəsi | Hərrac | ƏMDK-nin Xaçmaz ərazi şöbəsi, Xaçmaz rayonu, N.Nərimanov küçəsi,10 Tel: (023) 325 39 72 | 10 oktyabr 2019-cu il tarixinədək Xaçmaz ərazi şöbəsi | 14 kv.m Satılır | 13.44 | 350,00 35,00 | Sahibkarlıq | I zona | 302012003140 |
| 25 | Xaçmaz rayonu Ləcət Bələdiyyəsi | Hərrac | ƏMDK-nin Xaçmaz ərazi şöbəsi, Xaçmaz rayonu, N.Nərimanov küçəsi,10 Tel: (023) 325 39 72 | 10 oktyabr 2019-cu il tarixinədək Xaçmaz ərazi şöbəsi | 1000 kv.m Satılır | 221.98 | 1300,00 130,00 | Həyətyanı | I qrup, əkin | 302012003248 |
| 26 | Quba rayonu Quba Bələdiyyəsi | Hərrac | ƏMDK-nin Xaçmaz ərazi şöbəsi, Xaçmaz rayonu, N.Nərimanov küçəsi,10 Tel: (023) 325 39 72 | 10 oktyabr 2019-cu il tarixinədək Xaçmaz ərazi şöbəsi | 80 kv.m Satılır | 32.00 | 400,00 40,00 | Həyətyanı | III zona | 303012002630 |
| 27 | Quba rayonu Alpan Bələdiyyəsi | Hərrac | ƏMDK-nin Xaçmaz ərazi şöbəsi, Xaçmaz rayonu, N.Nərimanov küçəsi,10 Tel: (023) 325 39 72 | 10 oktyabr 2019-cu il tarixinədək Xaçmaz ərazi şöbəsi | 200 kv.m Satılır | 15.48 | 2200,00 220,00 | Sahibkarlıq | V qrup, şərti yararsız | 303012002638 |
| 28 | Quba rayonu Alpan Bələdiyyəsi | Hərrac | ƏMDK-nin Xaçmaz ərazi şöbəsi, Xaçmaz rayonu, N.Nərimanov küçəsi,10 Tel: (023) 325 39 72 | 10 oktyabr 2019-cu il tarixinədək Xaçmaz ərazi şöbəsi | 20 kv.m Satılır | 1.54 | 220,00 22,00 | Sahibkarlıq | V qrup, şərti yararsız | 303012002642 |
| 29 | Quba rayonu Alpan Bələdiyyəsi | Hərrac | ƏMDK-nin Xaçmaz ərazi şöbəsi, Xaçmaz rayonu, N.Nərimanov küçəsi,10 Tel: (023) 325 39 72 | 10 oktyabr 2019-cu il tarixinədək Xaçmaz ərazi şöbəsi | 100 kv.m Satılır | 7.74 | 1100,00 110,00 | Sahibkarlıq | V qrup, şərti yararsız | 303012002641 |
| 30 | Qusar rayonu Həzrə Bələdiyyəsi | Hərrac | ƏMDK-nin Xaçmaz ərazi şöbəsi, Xaçmaz rayonu, N.Nərimanov küçəsi,10 Tel: (023) 325 39 72 | 10 oktyabr 2019-cu il tarixinədək Xaçmaz ərazi şöbəsi | 1200 kv.m Satılır | 151.98 | 1320,00 132,00 | Həyətyanı | I qrup, əkin | 301012001822 |
| 31 | Qusar rayonu Quxuroba Bələdiyyəsi | Hərrac | ƏMDK-nin Xaçmaz ərazi şöbəsi, Xaçmaz rayonu, N.Nərimanov küçəsi,10 Tel: (023) 325 39 72 | 10 oktyabr 2019-cu il tarixinədək Xaçmaz ərazi şöbəsi | 1200 kv.m Satılır | 228.61 | 1200,00 120,00 | Həyətyanı | I qrup, əkin | 301012077357 |
| 32 | Qusar rayonu Mucuq Bələdiyyəsi | Hərrac | ƏMDK-nin Xaçmaz ərazi şöbəsi, Xaçmaz rayonu, N.Nərimanov küçəsi,10 Tel: (023) 325 39 72 | 10 oktyabr 2019-cu il tarixinədək Xaçmaz ərazi şöbəsi | 100 kv.m Satılır | 7.34 | 500,00 50,00 | Sahibkarlıq | Sair sahələr, Şərti yararsız | 301012001339 |
| 33 | Qusar rayonu Əcəxur Bələdiyyəsi | Hərrac | ƏMDK-nin Xaçmaz ərazi şöbəsi, Xaçmaz rayonu, N.Nərimanov küçəsi,10 Tel: (023) 325 39 72 | 10 oktyabr 2019-cu il tarixinədək Xaçmaz ərazi şöbəsi | 1200 kv.m Satılır | 151.99 | 792,00 80,00 | Həyətyanı | I qrup, əkin | 301012077335 |
| 34 | Qusar rayonu İmam - qulukənd Bələdiyyəsi | Hərrac | ƏMDK-nin Xaçmaz ərazi şöbəsi, Xaçmaz rayonu, N.Nərimanov küçəsi,10 Tel: (023) 325 39 72 | 10 oktyabr 2019-cu il tarixinədək Xaçmaz ərazi şöbəsi | 1200 kv.m Satılır | 151.99 | 828,00 83,00 | Həyətyanı | I qrup, əkin | 301012077380 |
| 35 | Qusar rayonu İmam - qulukənd Bələdiyyəsi | Hərrac | ƏMDK-nin Xaçmaz ərazi şöbəsi, Xaçmaz rayonu, N.Nərimanov küçəsi,10 Tel: (023) 325 39 72 | 10 oktyabr 2019-cu il tarixinədək Xaçmaz ərazi şöbəsi | 1200 kv.m Satılır | 151.99 | 828,00 83,00 | Həyətyanı | I qrup, əkin | 301012077380 |
| 36 | Şabran rayonu Şabran Bələdiyyəsi | Hərrac | ƏMDK-nin Xaçmaz ərazi şöbəsi, Xaçmaz rayonu, N.Nərimanov küçəsi,10 Tel: (023) 325 39 72 | 10 oktyabr 2019-cu il tarixinədək Xaçmaz ərazi şöbəsi | 52 kv.m Satılır | 26.52 | 879,00 88,00 | Sahibkarlıq | I zona | 304012001188 |
| 37 | Şabran rayonu Aygünlü Bələdiyyəsi | Hərrac | ƏMDK-nin Xaçmaz ərazi şöbəsi, Xaçmaz rayonu, N.Nərimanov küçəsi,10 Tel: (023) 325 39 72 | 10 oktyabr 2019-cu il tarixinədək Xaçmaz ərazi şöbəsi | 2 ha İcarə | 21.36 | 100,00 10,00 | Kənd təsərrüfatı məhsullarının istehsalı | II qrup, əkin | 304012001166 |
| 38 | Şabran rayonu Çölquşçu Bələdiyyəsi | Hərrac | ƏMDK-nin Xaçmaz ərazi şöbəsi, Xaçmaz rayonu, N.Nərimanov küçəsi,10 Tel: (023) 325 39 72 | 10 oktyabr 2019-cu il tarixinədək Xaçmaz ərazi şöbəsi | 5 ha İcarə | 21.00 | 90,00 9,00 | Kənd təsərrüfatı məhsullarının istehsalı | IV qrup, əkin | 304012001165 |
| 39 | Şabran rayonu Çölquşçu Bələdiyyəsi | Hərrac | ƏMDK-nin Xaçmaz ərazi şöbəsi, Xaçmaz rayonu, N.Nərimanov küçəsi,10 Tel: (023) 325 39 72 | 10 oktyabr 2019-cu il tarixinədək Xaçmaz ərazi şöbəsi | 1200 kv.m Satılır | 209.74 | 816,00 82,00 | Həyətyanı | I qrup, əkin | 304012001128 |
| 40 | Şabran rayonu Çölquşçu Bələdiyyəsi | Hərrac | ƏMDK-nin Xaçmaz ərazi şöbəsi, Xaçmaz rayonu, N.Nərimanov küçəsi,10 Tel: (023) 325 39 72 | 10 oktyabr 2019-cu il tarixinədək Xaçmaz ərazi şöbəsi | 1200 kv.m Satılır | 209.74 | 816,00 82,00 | Həyətyanı | I qrup, əkin | 304012001159 |
| 41 | Beyləqan rayonu Əmirzeyidli Bələdiyyəsi | Müsabiqə | ƏMDK-nin Beyləqan ərazi şöbəsi, Beyləqan rayonu S.İmrəliyev küçəsi 95 Tel: (021) 225 16 24 | 10 oktyabr 2019-cu il tarixinədək Beyləqan ərazi şöbəsi | 2,4 ha İcarə | 5.38 | 120.00 | Kənd təsərrüfatı (heyvandarlıq) | IV qrup, örüş | 607012000927 |
| 42 | Beyləqan rayonu Əmirzeyidli Bələdiyyəsi | Müsabiqə | ƏMDK-nin Beyləqan ərazi şöbəsi, Beyləqan rayonu S.İmrəliyev küçəsi 95 Tel: (021) 225 16 24 | 10 oktyabr 2019-cu il tarixinədək Beyləqan ərazi şöbəsi | 5000 kv.m İcarə | 1.14 | 25.00 | Kənd təsərrüfatı (heyvandarlıq) | IV qrup, örüş | 607012000808 |
| 43 | Cəlilabad rayonu Üçtəpə Bələdiyyəsi | Hərrac | ƏMDK-nin Cəlilabad ərazi şöbəsi, Cəlilabad şəh,,H.Əliyev prospekt 151 Tel: (025) 245 50 29 | 10 oktyabr 2019-cu il tarixinədək Cəlilabad ərazi şöbəsi | 316 kv.m Satılır | 19,73 | 7000,00 700,00 | Sahibkarlıq | Şərti yararsız | 806012000780 |
| 44 | Biləsuvar rayonu Biləsuvar Bələdiyyəsi | Hərrac | ƏMDK-nin Cəlilabad ərazi şöbəsi, Cəlilabad şəh,,H.Əliyev prospekt 151 Tel: (025) 245 50 29 | 10 oktyabr 2019-cu il tarixinədək Cəlilabad ərazi şöbəsi | 60 kv.m Satılır | 18 | 1160,00 116,00 | Sahibkarlıq | II zona | 808012000395 |
| 45 | Biləsuvar rayonu Xırmandalı Bələdiyyəsi | Müsabiqə | ƏMDK-nin Cəlilabad ərazi şöbəsi, Cəlilabad şəh,,H.Əliyev prospekt 151 Tel: (025) 245 50 29 | 10 oktyabr 2019-cu il tarixinədək Cəlilabad ərazi şöbəsi | 33 kv.m Satılır | 2,75 | 825.00 | Sahibkarlıq | Şərti yararsız | 808012000445 |
| 46 | Biləsuvar rayonu Aşağı Cürəli-Muğan Bələdiyyəsi | Müsabiqə | ƏMDK-nin Cəlilabad ərazi şöbəsi, Cəlilabad şəh,,H.Əliyev prospekt 151 Tel: (025) 245 50 29 | 10 oktyabr 2019-cu il tarixinədək Cəlilabad ərazi şöbəsi | 2 ha İcarə | 2,4 | 70.00 | Kənd təsərrüfatı (heyvandarlıq) | III qrup, bonitet balı 45, örüş | 808012000490 |
| 47 | Biləsuvar rayonu Aşağı Cürəli-Muğan Bələdiyyəsi | Müsabiqə | ƏMDK-nin Cəlilabad ərazi şöbəsi, Cəlilabad şəh,,H.Əliyev prospekt 151 Tel: (025) 245 50 29 | 10 oktyabr 2019-cu il tarixinədək Cəlilabad ərazi şöbəsi | 3 ha İcarə | 3,5 | 105.00 | Kənd təsərrüfatı (heyvandarlıq) | III qrup, bonitet balı 58, örüş | 808012000492 |
| 48 | Masallı rayonu Boradigah Bələdiyyəsi | Hərrac | ƏMDK-nin Cəlilabad ərazi şöbəsi, Cəlilabad şəh,,H.Əliyev prospekt 151 Tel: (025) 245 50 29 | 10 oktyabr 2019-cu il tarixinədək Cəlilabad ərazi şöbəsi | 20 ha İcarə | 141,6 | 2000,00 200,00 | Kənd təsərrüfatı məhsullarının istehsalı | II qrup, bonitet balı 67, əkin | 805012001004 |
| 49 | Qobustan rayonu Xilmilli Bələdiyyəsi | Hərrac | ƏMDK-nin Şamaxı ərazi şöbəsi Şamaxı şəhəri, H.Əliyev prospekti 27 Tel:(020) 2651076 | 10 oktyabr 2019-cu il tarixinədək Şamaxı ərazi şöbəsi | 190 ha İcarə | 132.24 | 4180,00 418,00 | Kənd təsərrüfatı (heyvandarlıq) | IV qrup, örüş | 307012000474 |
| 50 | Ağsu rayonu İlxıçı Bələdiyyəsi | Hərrac | ƏMDK-nin Şamaxı ərazi şöbəsi Şamaxı şəhəri, H.Əliyev prospekti 27 Tel:(020) 2651076 | 10 oktyabr 2019-cu il tarixinədək Şamaxı ərazi şöbəsi | 15 ha İcarə | 11.88 | 375,00 37,50 | Kənd təsərrüfatı (heyvandarlıq) | III qrup, örüş | 409012000692 |

## Torpaq müsabiqələrinin və hərraclarının keçirilməsi haqqında məlumat
## Torpaq müsabiqə və hərracları oktyabr ayının 10-da saat 15:00-da keçiriləcəkdir.
***(Ərizələr 09 sentyabr 2019-cu il - 09 oktyabr 2019-cu il tarixlərində qəbul edilir)***

| Sıra № si | Torpağı müsabiqə və ya hərraclara çıxaran hüquqi şəxs (yerli icra hakimiyyəti, bələdiyyə) | Müsabiqə və ya hərrac | Müsabiqə və ya hərracın keçirildiyi yer və əlaqə telefonu | Müsabiqə və ya hərraca çıxarılan torpaq sahəsi və satıcı ilə bağlanacaq müqavilənin layihəsi ilə tanış olma tarixi, vaxtı və ünvanı | Sahəsi (kv.m və ya ha.), satılır və ya icarəyə verilir | Satışda-normativ qiymət, icarədə icarə haqqının aşağı həddi (manatla) | Hərracda ilkin qiymət, hərrac addımı və ya müsabiqədə qiymət, icarədə icarə haqqı (manatla) | Hansı məqsəd üçün satılır və ya icarəyə verilir | Uqodiya (təsərrüfat yeri) növü, keyfiyyət qrupu, şəhərlərdə və rayon mərkəzlərində zona | Torpaq üzərində hüququ təsdiq edən sənədin nömrəsi |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| 51 | Ağsu rayonu İlxıçı Bələdiyyəsi | Hərrac | ƏMDK-nin Şamaxı ərazi şöbəsi Şamaxı şəhəri, H.Əliyev prospekti 27 Tel:(020) 2651076 | 10 oktyabr 2019-cu il tarixinədək Şamaxı ərazi şöbəsi | 20 ha İcarə | 15.84 | 500,00 50,00 | Kənd təsərrüfatı (heyvandarlıq) | III qrup, örüş | 409012000754 |
| 52 | Şəki rayonu Baş Layısqı Bələdiyyəsi | Müsabiqə | ƏMDK-nin Şəki ərazi şöbəsi, Şəki şəhəri, H.Əliyev prospekti 9A Tel: (024) 244 26 10 | 10 oktyabr 2019-cu il tarixinədək Şəki ərazi şöbəsi | 1 ha İcarə | 18.00 | 60.00 | Kənd təsərrüfatı məhsullarının istehsalı | II qrup, əkin | 404012004635 |
| 53 | Qəbələ rayonu Qəbələ Bələdiyyəsi | Müsabiqə | ƏMDK-nın Qəbələ ərazi şöbəsi, Qəbələ rayonu, Z.Əliyeva küç 6 Tel: (024) 205 45 56 | 10 oktyabr 2019-cu il tarixinədək Qəbələ ərazi şöbəsi | 300 kv.m Satılır | 153.00 | 915.00 | Həyətyanı | I zona | 406012000984 |
| 54 | Qəbələ rayonu Qəbələ Bələdiyyəsi | Müsabiqə | ƏMDK-nın Qəbələ ərazi şöbəsi, Qəbələ rayonu, Z.Əliyeva küç 6 Tel: (024) 205 45 56 | 10 oktyabr 2019-cu il tarixinədək Qəbələ ərazi şöbəsi | 400 kv.m Satılır | 204.00 | 1220.00 | Həyətyanı | I zona | 406012000988 |
| 55 | Qəbələ rayonu Qəbələ Bələdiyyəsi | Müsabiqə | ƏMDK-nın Qəbələ ərazi şöbəsi, Qəbələ rayonu, Z.Əliyeva küç 6 Tel: (024) 205 45 56 | 10 oktyabr 2019-cu il tarixinədək Qəbələ ərazi şöbəsi | 370 kv.m Satılır | 188.70 | 1128.50 | Həyətyanı | I zona | 406012000987 |
| 56 | Qəbələ rayonu Qəbələ Bələdiyyəsi | Müsabiqə | ƏMDK-nın Qəbələ ərazi şöbəsi, Qəbələ rayonu, Z.Əliyeva küç 6 Tel: (024) 205 45 56 | 10 oktyabr 2019-cu il tarixinədək Qəbələ ərazi şöbəsi | 283 kv.m Satılır | 144.33 | 863.15 | Həyətyanı | I zona | 406012000990 |
| 57 | Qəbələ rayonu Qəbələ Bələdiyyəsi | Müsabiqə | ƏMDK-nın Qəbələ ərazi şöbəsi, Qəbələ rayonu, Z.Əliyeva küç 6 Tel: (024) 205 45 56 | 10 oktyabr 2019-cu il tarixinədək Qəbələ ərazi şöbəsi | 400 kv.m Satılır | 204.00 | 1220.00 | Həyətyanı | I zona | 406012000985 |
| 58 | Qəbələ rayonu Qəbələ Bələdiyyəsi | Müsabiqə | ƏMDK-nın Qəbələ ərazi şöbəsi, Qəbələ rayonu, Z.Əliyeva küç 6 Tel: (024) 205 45 56 | 10 oktyabr 2019-cu il tarixinədək Qəbələ ərazi şöbəsi | 300 kv.m Satılır | 153.00 | 915.00 | Həyətyanı | I zona | 406012001003 |
| 59 | Qəbələ rayonu Qəbələ Bələdiyyəsi | Müsabiqə | ƏMDK-nın Qəbələ ərazi şöbəsi, Qəbələ rayonu, Z.Əliyeva küç 6 Tel: (024) 205 45 56 | 10 oktyabr 2019-cu il tarixinədək Qəbələ ərazi şöbəsi | 360 kv.m Satılır | 108.00 | 1098.00 | Həyətyanı | II zona | 406012001007 |
| 60 | Qəbələ rayonu Nic Bələdiyyəsi | Müsabiqə | ƏMDK-nın Qəbələ ərazi şöbəsi, Qəbələ rayonu, Z.Əliyeva küç 6 Tel: (024) 205 45 56 | 10 oktyabr 2019-cu il tarixinədək Qəbələ ərazi şöbəsi | 796 kv.m Satılır | 17.20 | 8756.00 | Sahibkarlıq | V qrup, şərti yararsız | 406012001019 |
| 61 | Oğuz rayonu Yaqublu Bələdiyyəsi | Müsabiqə | ƏMDK-nın Qəbələ ərazi şöbəsi, Qəbələ rayonu, Z.Əliyeva küç 6 Tel: (024) 205 45 56 | 10 oktyabr 2019-cu il tarixinədək Qəbələ ərazi şöbəsi | 2,14 ha İcarə | 4.62 | 171.20 | Kənd təsərrüfatı (heyvandarlıq) | Örüş | 405012001931 |
| 62 | İsmayıllı rayonu Qalınçaq Bələdiyyəsi | Müsabiqə | ƏMDK-nın Qəbələ ərazi şöbəsi, Qəbələ rayonu, Z.Əliyeva küç 6 Tel: (024) 205 45 56 | 10 oktyabr 2019-cu il tarixinədək Qəbələ ərazi şöbəsi | 3,9398 ha İcarə | 23.64 | 393.98 | Kənd təsərrüfatı məhsullarının istehsalı | II qrup, əkin | 407012001246 |
| 63 | İsmayıllı rayonu Qalınçaq Bələdiyyəsi | Müsabiqə | ƏMDK-nın Qəbələ ərazi şöbəsi, Qəbələ rayonu, Z.Əliyeva küç 6 Tel: (024) 205 45 56 | 10 oktyabr 2019-cu il tarixinədək Qəbələ ərazi şöbəsi | 3,4843 ha İcarə | 20.91 | 348.43 | Kənd təsərrüfatı məhsullarının istehsalı | II qrup, əkin | 407012001358 |
| 64 | İsmayıllı rayonu Qalınçaq Bələdiyyəsi | Müsabiqə | ƏMDK-nın Qəbələ ərazi şöbəsi, Qəbələ rayonu, Z.Əliyeva küç 6 Tel: (024) 205 45 56 | 10 oktyabr 2019-cu il tarixinədək Qəbələ ərazi şöbəsi | 2,2157 ha İcarə | 1.75 | 208.28 | Kənd təsərrüfatı (heyvandarlıq) | Örüş | 407012001359 |

## 08 oktybar 2019-cu il tarixində saat 12.00-da ilkin hərraca çıxarılacaq dövlət nəfinə müsadirə edilmiş əmlakların siyahısı

manatla

| Sıra sayı | Əmlakın adı | Əmlakın yerləşdiyi ünvan | Ölçü vahidi | Miqdarı | Əmlakın start (satış) qiyməti | 10% beh |
|---|---|---|---|---|---|---|
| | | **Binəqədi rayonu** | | | | |
| 1 | "Samsung GT E1202i" markalı mobil telefon | Hərracların Təşkili üzrə Auksion Mərkəzinin təyin etdiyi saxlanc yeri | ədəd | 1 | 5 | 0.5 |
| 2 | "Kenuo KN 620" markalı video player | Hərracların Təşkili üzrə Auksion Mərkəzinin təyin etdiyi saxlanc yeri | ədəd | 1 | 40 | 4 |
| | | **Səbail rayonu** | | | | |
| 1 | Müxtəlif markalı mobil telefonlar | Hərracların Təşkili üzrə Auksion Mərkəzinin təyin etdiyi saxlanc yeri | ədəd | 2 | 170 | 17 |

Qeyd: Hərracda iştirak etmək istəyən fiziki və hüquqi şəxslər satışa çıxarılan əmlaka sifariş vermək üçün Əmlak Xidmətləri Məkanına müraciət edə bilərlər. Hərraclarda sifariş və digər zəruri sənədləri təqdim etmiş, satılan əmlakın ilkin satış qiymətinin 10% həcmində behi ödəmiş hüquqi və fiziki şəxslər iştirak edə bilərlər. Sifarişlər Əmlak Xidmətləri Məkanında (Bakı şəhəri, Nizami rayonu, Xəlil Rza Ulutürk küçəsi, 20 ünvanında) və yaxud komitənin e-emdk.gov.az elektron xidmətlər portalı vasitəsilə hərracın keçirilməsinə ən geci 3 bank günü qalanadək qəbul edilir.

- hüquqi şəxslər üçün təsis sənədlərinin müəyyən olunmuş qaydada təsdiq edilmiş surətləri;
- fiziki şəxslər üçün şəxsiyyəti təsdiq edən sənədin surəti;
- aşağıdakı hesaba 10% behin köçürülməsini təsdiq edən sənədin surəti;

Hesab nömrəsi:

Dövlət Xəzinədarlıq Agentliyi, Kod 210005, VÖEN 1401555071,

Müxbir hesab AZ85NABZ01360100000003003944, SWİFT BİK CTREAZ22.

Vəsaiti alan:Əmlak Məsələləri Dövlət Komitəsinin yanında Hərracların Təşkili üzrə Auksion Mərkəzi,

Hesab № AZ77CTRE00000000000002647902 VÖEN 2000325371.

Büdcə təsnifatının kodu: 142191

Büdcə səviyyəsinin kodu: 7

Ünvan: Bakı şəhəri, Nizami rayonu, X.R.Ulutürk 20

Tel: 193

## 08 oktyabr 2019-cu il tarixində saat 12.00-da təkrar hərraca çıxarılacaq dövlət nəfinə müsadirə edilmiş əmlakların siyahısı

manatla

| Sıra sayı | Əmlakın adı | Əmlakın yerləşdiyi ünvan | Ölçü vahidi | Miqdarı | Əmlakın start (satış) qiyməti | 10% beh |
|---|---|---|---|---|---|---|
| | | **Binəqədi rayonu** | | | | |
| 1 | "Huawei" markalı mobil telefon | Hərracların Təşkili üzrə Auksion Mərkəzinin təyin etdiyi saxlanc yeri | ədəd | 1 | 35 | 3.5 |
| | | **Nərimanov rayonu** | | | | |
| 1 | "HP Deskjet 1513" markalı çoxfunksiyalı çap qurğu | Hərracların Təşkili üzrə Auksion Mərkəzinin təyin etdiyi saxlanc yeri | ədəd | 1 | 20 | 2 |
| | | **Xətai rayonu** | | | | |
| 1 | "Samsung" markalı mobil telefon | Hərracların Təşkili üzrə Auksion Mərkəzinin təyin etdiyi saxlanc yeri | ədəd | 1 | 15 | 1.5 |
| | | **Yasamal rayonu** | | | | |
| 1 | Müxtəlif markalı mobil telefonlar | Hərracların Təşkili üzrə Auksion Mərkəzinin təyin etdiyi saxlanc yeri | ədəd | 6 | 60 | 6 |
| | | **Gəncə şəhəri** | | | | |
| 1 | Müxtəlif markalı mobil telefonlar | Gəncə şəhəri | ədəd | 2 | 11.25 | 1.13 |

Qeyd: Hərracda iştirak etmək istəyən fiziki və hüquqi şəxslər satışa çıxarılan əmlaka sifariş vermək üçün Əmlak Xidmətləri Məkanına müraciət edə bilərlər. Hərraclarda sifariş və digər zəruri sənədləri təqdim etmiş, satılan əmlakın ilkin satış qiymətinin 10% həcmində behi ödəmiş hüquqi və fiziki şəxslər iştirak edə bilərlər. Sifarişlər Əmlak Xidmətləri Məkanında (Bakı şəhəri, Nizami rayonu, Xəlil Rza Ulutürk küçəsi, 20 ünvanında) və yaxud komitənin e-emdk.gov.az elektron xidmətlər portalı vasitəsilə hərracın keçirilməsinə ən geci 3 bank günü qalanadək qəbul edilir.

- hüquqi şəxslər üçün təsis sənədlərinin müəyyən olunmuş qaydada təsdiq edilmiş surətləri;
- fiziki şəxslər üçün şəxsiyyəti təsdiq edən sənədin surəti;
- aşağıdakı hesaba 10% behin köçürülməsini təsdiq edən sənədin surəti;

Hesab nömrəsi:

Dövlət Xəzinədarlıq Agentliyi, Kod 210005, VÖEN 1401555071,

Müxbir hesab AZ85NABZ01360100000003003944, SWİFT BİK CTREAZ22.

Vəsaiti alan:Əmlak Məsələləri Dövlət Komitəsinin yanında Hərracların Təşkili üzrə Auksion Mərkəzi,

Hesab № AZ77CTRE00000000000002647902 VÖEN 2000325371.

Büdcə təsnifatının kodu: 142191

Büdcə səviyyəsinin kodu: 7

Ünvan: Bakı şəhəri, Nizami rayonu, X.R.Ulutürk 20

Tel: 193







**Təsisçi**
Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsi

**Qeydiyyat nömrəsi:** 389
**Tiraj: 3 000**

**Ünvan:** AZ1010, Bakı şəhəri, Nəsimi rayonu, Keykab Səfərəliyeva küç., 25.
**Telefon:** 489 02 25; **e-mail:** mulkiyyet@gmail.com

Qəzetdə "AzərTAc" informasiya agentliyinin materiallarından istifadə olunur.
Reklam və elanların mətninə görə redaksiya məsuliyyət daşımır.